# Kazus

Bakı şəhərinin Nardaran qəsəbəsində yaşayan Hümbətovlar 9 nəfərdən ibarət olmaqda qatı dindar müsəlman ailəsidir. Ailədə 4 qadın 5 kişi yaşayır. Onlardan 3-ü 16 yaşına çatmamış uşaqdırlar.

Ailənin yetkinlik yaşına çatan xanım üzvləri hicab geyindiyinə görə hüquqlarının ciddi şəkildə pozulduğunu iddia edirlər. Belə ki, onlar heç biri şəxsiyyət vəsiqəsi ala bilmədiyi üçün bir çox vətəndaş hüquqlarından məhrum olunurlar.

Şəxsiyyət vəsiqəsi almaq üçün onlardan başı açıq şəkil çəkdirməsi tələb olunur. Hətta Pasport İdarəsi onlara rəsmi məktubla bildirib ki, *"...Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 saylı qərarı ilə təsdiq edilmiş"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanunun tətbiqi haqqında ƏSASNAMƏnin 6-ci maddəsinə əsasən, 16 yaşına çatmış vətəndaş öz şəxsiyyət vəsiqəsi üçün bir neqativdən eyni ölçüdə çıxarılmış, sifətin* ***papaqsız, gündəlik həyatda ona xas olan xarici görkəm və əlamətlərlə (eynək, saqqal, bığ və s.) yalnız öndən görünüşü təsvir edilmiş fotoşəkilləri*** *ərizə və başqa sənədlərlə birlikdə müvafiq dövlət orqanına təqdim etməlidir. Hicab da papaq kimi öndən görünüşü əngəlləyən amil olduğu üçün onunla şəkil çəkdirmək qadağandır".*

Hümbətovlar ailəsindəki qadınlar bununla razılaşlar. Onlar hesab edirlər ki, bu, birincisi onlara qarşı dini ayrı-seçkilikdir.

İkincisi, şəkil çəkdirərkən hicabı çıxarmağı tələb etmək onların AİHK-nın 9-cu maddəsində nəzərdə tutulan din və vicdan azadlığını pozur.

Üçüncüsü, hicablı olmaq onların gündəlik geyim tərzidir. Buna görə də dövlət onları qeyd-şərtsiz onlara şəxsiyyət vəsiqəsi ilə təmin etməlidir.

Dövlət orqanları bu cür davranmaqla həm də onların digər hüquqlarını da pozur. Məsələn, ailədə ən yaşlı olan 67 yaşlı Firuzə Hümbətova şəxsiyyət vəsiqəsi ala bilmədiyi üçün hələ də pensiya ala bilmir.

51 yaşlı gəlini Sona Hümbətova 50 yaşdan sonra şəxsiyyət vəsiqəsini dəyişməli olduğu üçün müəllimə işlədiyi məktəbə onu təqdim edə bilmir. Buna görə də işdən azad olunub.

24 yaşlı nəvəsi Şəbnəm artıq 4 ildir ki evli olmasına və 2 uşağı olmasına baxmayaraq hələ də əri ilə rəsmi nikaha girə bilmir. Həmçinin əri ilə problemləri olduğu üçün boşanmaq, uşaqlarına aliment tələb etmək üçün məhkəməyə də müraciət edə bilmir.

15 yaşlı digər nəvə Aytacı da 1 ildən sonra eyni aqibət gözləyir.

Bu ailənin qadınları bundan başqa, seçkilərdə aktiv və passiv iştirak etmək, qanunla vətəndaşlar üçün nəzərdə tutulan tibbi, sığorta və sair kimi əsas hüquqlardan da məhrumdurlar.

- Konvensiyanın 9-cu maddəsinin təsir dairəsinə düşürmü?
- Müdaxilə baş veribmi?
- Müdaxilə qanunda nəzərdə tutulubmu?
- Müdaxilə demokratik cəmiyyətdə zəruriydimi?
- Digər maddələrlə əlaqə olubmu?

*Hazırladı: Oktay Məhərrəmov*
*Günel İsmayılbəyli*